Elmi Xəbərlər Jurnalı Nömrə 5, 2025 145-148
DOI:10.30546/gdu.5.2025

UOT:82.

# RÜFƏT ƏHMƏDZADƏNİN POEZİYASINDA MİRZƏ ƏLƏKBƏR SABİR İZLƏRİ

***Həmidova Aytac Nəzər qızı***
***“Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyat Muzeyi”nin dissertantı***
***ORCID: 0009-0005-1419-9465***
***aytac.hamidova92@mail.ru***

**Xülasə:** *Bu məqalədə Mirzə Ələkbər Sabirin zəngin satirik ənənələrinin Rüfət Əhmədzadənin poeziyasında necə uğurla davam etdirildiyi və yenidən işlənildiyi geniş şəkildə araşdırılıb. M.Ə.Sabirin poeziyasında cəmiyyətin sosial problemləri, ədalətsizlik, korrupsiya və mənəvi böhran kimi mövzular kəskin satirik yanaşma ilə işıqlandırılırdı və bu xüsusiyyətlər Rüfət Əhmədzadənin yaradıcılığında da açıq şəkildə görünür. Məqalədə göstərilib ki, R.Əhmədzadə M.Ə.Sabirin ictimai-siyasi tənqid ruhunu qoruyub saxlayaraq eyni zamanda öz dövrünün çağırışlarına uyğun yeni ifadə vasitələri və mövzular əlavə etmişdir. Rüfət Əhmədzadə klassik satirik poeziyanı qoruyub inkişaf etdirərək Azərbaycan ədəbiyyatının davamlılığına və zənginliyinə böyük töhfə verib.*

**Açar sözlər:** Mirzə Ələkbər Sabir, Rüfət Əhmədzadə, satirik poeziya, Azərbaycan ədəbiyyatı, ictimai tənqid.

**Ключевые слова:** Мирза Алекпер Сабир, Руфат Ахмедзаде, сатирическая поэзия, азербайджанская литература, социальная критика.

**Keywords:** Mirza Alakbar Sabir, Rufat Ahmadzadeh, satirical poetry, Azerbaijani literature, social criticism.

Azərbaycan satirik poeziyası xalqın ictimai-sosial həyatında baş verən mənfi halların, geriliyin və cahilliyin ifşasında mühüm rol oynamışdır. Bu poeziya ənənəsi XX əsrin əvvəllərində Mirzə Ələkbər Sabir yaradıcılığı ilə zirvəyə çatmış, onun satirik təfəkkürü, xalq ruhuna uyğun sadə və təsirli poetik dili sonrakı nəsil satiriklər üçün güclü yaradıcılıq məktəbinə çevrilmişdir. M.Ə.Sabirin açdığı bu yol illər sonra Azərbaycan poeziyasında Rüfət Əhmədzadə kimi ədəbi varis tərəfindən böyük ustalıqla davam etdirilmişdir.

Rüfət Əhmədzadənin poeziyası Sabirin poetikasına yalnız forma baxımından deyil, ideya-məzmun baxımından da yaxınlıq göstərir. O, Sabirin tənqid etdiyi sosial ədalətsizlik, riyakarlıq, nadanlıq kimi problemləri öz dövrünün reallıqları fonunda təhlil etmiş, klassik satira ənənəsini yeni poeziyada yaşatmağa nail olmuşdur. R.Əhmədzadənin M.Ə.Sabirə yazdığı nəzirələrdə, eləcə də fərdi satirik şeirlərində bu ideya və üslub oxşarlığı aydın sezilir.

Mirzə Ələkbər Sabir (1862–1911) Azərbaycan ədəbiyyatında satiranın inkişafında xüsusi rol oynayan böyük şairlərdəndir. O, **Molla Nəsrəddin** jurnalı vasitəsi ilə ictimai-siyasi satiranı xalq kütləsinə çatdıran, formaca sadə, məzmunca dərin bir üslub yaradan sənətkar kimi tanınır.

Azərbaycan ədəbiyyatında “Molla Nəsrəddin” jurnalının rolu danılmazdır; bu jurnal təkcə ictimai-siyasi satiranın inkişafına deyil, həm də şairlərin yaradıcılığının formalaşmasına böyük təsir göstərmişdir. Xüsusilə Mirzə Ələkbər Sabir kimi böyük şair üçün jurnalın mühiti həm ilham mənbəyi, həm də yaradıcılığının istiqamətvericisi olmuşdur. Jurnalın tənqidi ruhu və ictimai çağırışları Sabirin satirik poeziyasının məzmununu zənginləşdirərək onun əsərlərinə yeni nəfəs gətirmişdir. Bu baxımdan Ulduz Qəhrəmanova qeyd edir ki: **“Molla Nəsrəddin” jurnalının nəşri böyük şairin ilhamına qüvvət verərək onun yaradıcılığını**

DOI:10.30546/gdu.5.2025

**müəyyən dərəcə istiqamətləndirirdi. Jurnalın ruhu Sabirin də şair təbiətinə tamam müvafiq idi.” [6, s.9].**

“Molla Nəsrəddin” jurnalı Sabirin həm estetik, həm də ideoloji baxımdan yüksəlişinə zəmin yaratmışdır.

M.Ə.Sabirin yaradıcılığı satirik gücü və sosial şüur oyandıran təhkiyəsi onun **poetik-nüfuzlu bir məktəb** kimi qəbul edilməsinə səbəb olmuşdur. Mirzə Ələkbər Sabir təkcə satirik poeziya sahəsində deyil, publisistika və tərcüməçilik istiqamətində də fəaliyyət göstərmişdir. Bununla əlaqəli **Mehparə Əliyeva** yazır: **“Lirik şeirlər, satiralar müəllifi tərcüməçiliklə də məşğul olmuş, felyetonları və məqalələri ilə məşhurlaşmışdır.” [5, s.22]**

Mirzə Ələkbər Sabirin satirik poeziyası xalqın mənəvi həyatını, dərdini, ictimai təbəqələr arasındakı ziddiyyətləri, cəmiyyətin sosial-siyasi ağrı nöqtələrini poetik formada dərinliklə əks etdirir. Timuçin Əfəndiyev haqlı olaraq qeyd edir ki: **“Sabirin satirik şeirlərində millətin maddi və mənəvi əzabları, ağrıları, itirdikləri bütün detalları ilə poetik şəkildə ifadə olunur.” [1, s.10].**

Onun satirik dili, poetik ustalığı və ictimai məsuliyyət hissi milli poeziyamızda satira janrının əsas dayaqlarını yaratmışdır. Rəfiq Zəka qeyd edib ki: “R.Əhmədzadə Sabirin kəşf etdiyi rəngarəng formalarda, vəznlərdə şeirlər yazmaqda hünər göstərir. O nədən yazırsa yazsın, fikirlərini aydın ifadə etməyə çalışır, yadda qalan misralarla oxucuları ələ almağı bacarır.” [7, s.206].

M.Ə.Sabirin satirik ənənələrinin davamçısı olan R.Əhmədzadə də ictimai problemləri, insan taleyini, sosial haqsızlıqları özünəməxsus şəkildə ifadə edir. Ənənə ilə yeniliyin sintezində, forma və məzmun uyğunluğunda Rüfət Əhmədzadə həm Sabirə bənzəyir, həm də ondan fərqlənərək fərdi yaradıcılıq xüsusiyyətlərini qoruyur. Rüfət Əhmədzadənin “Futbolsayağı” adlı şeiri də bu baxımdan müəllifin satirik yenilikçiliyini və forma baxımından orijinallığını əks etdirən nümunələrdəndir.

“Zənn eyləməsinlər çalışıb “xal” yığıram mən,
Allaha Şükür, xalça-xalım boldur özümçün.
Hər cəhd ilə dövlət yığıram, mal yığıram mən.
Meydançası yox, top qapısı koldur özümçün.

Dil məndə, yalanla udaram topları hopla,
Yox, arifə rast gəlsəm, işim ötməsə gopla,
Doldur yenə yırtıq topu, dostum, təzə topla”
Doldur, çəkərəm zəhmətini, doldur özümçün.” [3, s.37].

Rüfət Əhmədzadənin “Futbolsayağı” şeiri satirik üslubda yazılmış, sosial reallıqları incə bir istehza ilə tənqid edən orijinal poetik nümunədir. Şair burada futbol terminlərini məharətlə məcazi məna daşıyıcısına çevirərək, cəmiyyətdə mövcud olan mənfi halları – riyakarlığı, yalanı, qeyri-qanuni yolla qazanc əldə etməyi ifşa edir. “Xal yığmaq”, “top qapısı”, “meydança”, “topu doldurmaq” kimi ifadələr adi idman terminləri olsa da, bu şeirdə korrupsiya, mənfəətçilik və ikiüzlülük anlamlarını daşıyır. İroniya ilə işlənmiş bu ifadələr şairin yaradıcılığındakı yeniliyə, satiranın müasir formalarını tətbiq etmə bacarığına nümunədir. Şair özünü bu cəmiyyətin bir parçası kimi təqdim etsə də, əslində mənfi obrazları canlandıraraq tənqid obyektinə çevirir. Onun dili həm sarkastik, həm də obrazlıdır; xalq danışıq dili ilə ictimai-etik problemləri poeziya müstəvisinə gətirməyi bacarır. Bu şeir Rüfət Əhmədzadənin Sabir məktəbinin davamçısı olduğunu, lakin eyni zamanda öz dəsti-xəttini formalaşdırdığını göstərir.

DOI:10.30546/gdu.5.2025

R.Əhmədzadənin “Səbr elə” şeiri ironik və satirik çalarlarla zəngin bir şeirdir. Şair burada xalqın əziyyət çəkən, zəhmətlə yaşayan, təhsil alan, lakin buna baxmayaraq cəmiyyətdə layiqli yer tapa bilməyən kəsimin faciəsini istehza ilə ifadə edir.

“Mən bala, keyf edim belə
Sən də darıxma, səbr elə!
Çox da ki təhsil almısan,
Meylini elmə salmısan,
Baxıb gör harda qalmısan?
Vaxtını vermisən yelə,
Mən bala, keyf edim belə,
Sən də darıxma, səbr elə!” [2, s.44].

Buradakı “mən bala, keyf edim belə” ifadəsi əslində, məsuliyyətsiz, cəmiyyətin resurslarından bəhrələnən, lakin heç bir real dəyər yaratmayan təbəqənin obrazıdır. Şeirdə “səbr elə!” ifadəsi tənqidi bir ironiya ilə işlənib – sanki əzabkeş xalqdan səbr istənilir, halbuki bu səbr istəyi ədalətsizliyə göz yummanı simvolizə edir. Təhsilə və elmə dəyər verənlərin nəticədə “yelə verdiyi vaxt” kimi qiymətləndirilməsi acı bir tənqid formasıdır. Rüfət Əhmədzadə Sabir kimi burada da sosial təbəqələr arasındakı ziddiyyətləri, haqq-ədalət problemini poetik vasitələrlə qabardır. Sadə və danışıq dilinə yaxın üslub Sabirin poeziyasını xatırladır və bu şeiri satirik poeziyanın müasir nümunələrindən birinə çevirir. Şair xalqın səbrinin tükəndiyi bir zamanda satiranı silah kimi istifadə edərək cəmiyyətdə baş verən haqsızlıqları işıqlandırır.

Rüfət Əhmədzadənin “Sabiranə” adlı bu şeiri həm məzmun, həm də forma baxımından klassik satiranın böyük ustası Mirzə Ələkbər Sabirə dərin bir ehtiramın ifadəsidir. Şair burada dövrün sosial-mənəvi problemlərini ustalıqla qabardır və Sabirin ənənəvi satirik üslubuna söykənərək öz dövrünü tənqid edir.

“Onda adamlar lal olub, kar olub,
İndi bu işlər təzə aşkar olub?
Sən də sağ olsan deyəcəkdin belə:
Yüzdə birin yazmamışıq biz hələ.
Bəzisinin canın alıb vəlvələ,
Sirləri aləmdə bu gün car olub?
Guya bu işlər təzə aşkar olub.” [4, s.136].

Şeirdə “onda adamlar lal olub, kar olub” misrası ilə keçmişdəki ictimai susqunluq və laqeydlik nəzərdə tutulur. Ardınca verilən “İndi bu işlər təzə aşkar olub?” ritorik sualı, əslində, dəyişməyən reallıqlara, cəmiyyətin eyni qüsurlarla üz-üzə qalmasına işarə edir. Rüfət Əhmədzadə “Yüzdə birin yazmamışıq biz hələ” deyə Sabir irsinin nə qədər dərin və geniş olduğunu qəbul edir və bu irsin davam etdirilməsinin vacibliyini vurğulayır.

Satirik üslub, ictimai gerçəklərin tənqidi, ironik yanaşma və cəsarətli ifadə Rüfət Əhmədzadənin bu şeirini Sabirin poeziyasına yaxınlaşdırır. O, həm Sabirin mirasını yaşadır, həm də öz dövrünün gerçəkliklərinə şair gözü ilə baxaraq ictimai fikrə təsir göstərməyə çalışır. Bu baxımdan, Rüfət Əhmədzadənin poeziyasında Sabir izlərini aydın görmək mümkündür. O, Sabirin cəsarətini, xalqın dərdinə şərik olan qələm sahibinin vicdan səsini özündə yaşadır. Beləliklə, bu şeir həm Sabirin üslubuna bir ithaf, həm də çağdaş dövrün Sabiranə təfəkkürlə yenidən səsləndirilməsidir.

R.Əhmədzadənin satirik şeirlərində xalqın taleyinə biganə yanaşanlar, mənasız yerə öz kefində olanlar, cəmiyyətin dərdindən xəbərsiz qalanlar Sabiranə üslubla tənqid olunur. Bu isə onu göstərir ki, Rüfət Əhmədzadə klassik ədəbi irsin yalnız təsiri ilə kifayətlənmir, eyni zamanda bu irsi çağdaş cəmiyyətin problemlərinə uyğunlaşdıraraq poeziyasında yeni forma

DOI:10.30546/gdu.5.2025

və məzmunla təqdim edir. Sabirin irsindən qaynaqlanan bu poetik istiqamət Rüfət Əhmədzadə yaradıcılığında milli poeziyanın davamlılığını və dövrün ruhuna uyğunluğunu bir daha sübut edir.

***Ədəbiyyat***

1. Əfəndiyev Timuçin. Sabir satirasinda özünütanima və milli kimlik. 525-qəzet.- 2020.- 25 sentyabr.- S.10-11.
2. Əhmədzadə R.Z. Bu mənəm, mən deyiləm.- Bakı: Gənclik, 1976.- 118, [2] s.
3. Əhmədzadə R.Z. Düzü-düz əyrini-əyri.- Bakı: Gənclik, 1973.- 140 s.
4. Əhmədzadə R.Z. Hələlik.- Bakı: Yazıçı, 1991. - 192 s.
5. Əliyeva M. Humanist və demokratik ideyalar carçısı. Respublika.- 2022.- 28 may.- S.22.
6. Qəhrəmanova U. "Molla Nəsrəddin" jurnalında Mirzə Ələkbər Sabir imzaları / Axtarışlar: (ədəbiyyatşünaslıq, folklorşünaslıq, dilçilik və sənətşünaslıq) / AMEA, Naxçıvan bölməsi.- 2021.- №1.- S.9-17
7. Zəka Rəfiq Düzü-düz, əyrini-əyri/: Rüfət Əhmədzadənin eyni adlı kitabı haqqında// Azərbaycan.-1973.-N11.-S.205-208

**СЛЕДЫ МИРЗЫ АЛЕБЕРА САБИРА В ПОЭЗИИ РУФААТА АХМЕДЗАДЕ**

***Гамидова Айтадж Назар кызы***

***Резюме***

В данной статье подробно рассматривается, как богатые сатирические традиции Мирзы Алекпера Сабира были успешно продолжены и переработаны в поэзии Руфата Ахмедзаде. В поэзии М.А. Сабира такие темы, как социальные проблемы общества, несправедливость, коррупция и моральный кризис, были освещены с острой сатирической точки зрения, и эти черты также отчетливо видны в творчестве Руфата Ахмедзаде. В статье показано, что Р. Ахмедзаде, сохраняя дух социально-политической критики М.А. Сабира, добавил новые средства выражения и темы, соответствующие вызовам своего времени. Руфат Ахмедзаде внес большой вклад в преемственность и богатство азербайджанской литературы, сохранив и развив классическую сатирическую поэзию.

**TRACES OF MIRZA ALEKBER SABIR IN THE POETRY OF RUFAT AHMEDZADE**

***Hamidova Aytaj Nazar***

***Summary***

This article extensively examines how the rich satirical traditions of Mirza Alakbar Sabir were successfully continued and reworked in the poetry of Rufat Ahmadzade. In the poetry of M.A. Sabir, topics such as social problems of society, injustice, corruption and moral crisis were highlighted with a sharp satirical approach, and these features are also clearly visible in the work of Rufat Ahmadzade. The article shows that R. Ahmadzadeh, while preserving the spirit of M.A. Sabir's socio-political criticism, added new means of expression and themes in line with the challenges of his time. Rufat Ahmadzadeh made a great contribution to the continuity and richness of Azerbaijani literature by preserving and developing classical satirical poetry.

***Rəyçi: Filologiya elmləri doktoru, akademik Rafael Hüseynov***
***Daxil olma tarixi 02 iyul 2025-ci il***